*Vətən bölünməzdir!*

# LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 39-40 (8395) ◉ Çərşənbə axşamı, 31 oktyabr 2017-ci il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉ Qiyməti 50 qəpik







## LƏNKƏRAN ŞƏHƏRİNİN SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN YENİDƏN QURULMASI LAYİHƏSİNİN DAVAM ETDİRİLMƏSİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ölkədə əhalinin içməli su ilə təminatının və bununla bağlı xidmətlərin yaxşılaşdırılması istiqamətində sistemli fəaliyyət həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin müvafiq aktları ilə təsdiq olunmuş regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində regionlarda içməli su təchizatı və kanalizasiya infrastrukturu müasir tələblərə uyğun yenidən qurulmuş, bu sahədə mühüm işlər görülmüşdür.

Həmin tədbirlərin davamı olaraq, Lənkəran şəhərində su təchizatı və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması, əhalinin içməli su ilə fasiləsiz təmin olunması məqsədilə həyata keçirilən şəhərin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin növbəti mərhələsində diametri 110 mm, uzunluğu 11 km olan paylayıcı su şəbəkəsinin, habelə görülmüş işlər nəticəsində sökülmüş 13000 kvadratmetr asfalt örtüyünün bərpası zərurəti yaranmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Lənkəran şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində həyata keçirilən işlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1180 nömrəli Fərmanının 1.14.3.3.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsaitdən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 2,1 milyon (iki milyon bir yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 oktyabr 2017-ci il

## ERKƏN NİKAHLARIN FƏSADLARI İLƏ BAĞLI İCTİMAİ MÜZAKİRƏ

Oktyabrın 20-də Lənkəran şəhər Mədəniyyət Mərkəzinin iclas zalında erkən nikahlar və onun zərərləri barədə ictimai müzakirə keçirilib. Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı aparatının təşkilati dəstəyi ilə keçirilən müzakirədə rayonun idarə, müəssisə və təşkilatlarının, hüquq-mühafizə orqanlarının rəhbərləri, təhsil, səhiyyə və mədəniyyət şöbələrinin işçiləri, məktəb direktorları, psixoloqlar, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, din xadimləri, ağsaqqallar, fəal tələbə və gənclər, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.



Tədbir erkən nikahlar və onların fəsadları barədə çəkilmiş video-çarxın nümayişi ilə başlanıb. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov tədbiri giriş sözü ilə açaraq erkən nikah məsələsini cəmiyyəti narahat edən problem kimi dəyərləndirib. Natiq erkən nikahların yetkinlik yaşına çatmayan uşaqların hüquqlarının pozulmasına, vaxtsız qurulan ailələrin dağılmasına və cəmiyyətdə sosial problemlərin artmasına səbəb olduğunu qeyd edib. Bildirib ki, bu məsələyə qarşı rayon ziyalıları, ictimaiyyət nümayəndələri, məktəb müəllimləri, ictimai fəal gənclər və aidiyyatı yerli dövlət orqanlarının nümayəndələri geniş cəlb olunmalı, eyni zamanda, təhsil müəssisələrində, ictimai yerlərdə, kütləvi informasiya vasitələrində davamlı izahat-maarifləndirmə və ictimai qınaq tədbirləri keçirilməlidir. İcra başçısı erkən nikahların yaratdığı hüquqi məsuliyyəti gənclərə və valideynlərə ətraflı izah etməkdən ötrü hüquq-mühafizə orqanları nümayəndələrinin iştirakı ilə yerlərdə məlumatlandırıcı söhbətlərin aparılmasının da zəruriliyini diqqətə çatdırıb.

Daha sonra Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Rasilə Əliyeva "Erkən nikahların qarşısının alınması üzrə imkanların gücləndirilməsi" mövzusunda məruzə ilə çıxış edib. Natiq məruzəsində erkən nikahların ailələrə xoşbəxtlik gətirmədiyini, əksinə yeni ailənin möhkəmlənmədən dağılmasına, qız uşaqlarının təhsildən kənarda qalmasına şərait yaratdığını diqqətə çatdırıb və ictimaiyyətin birgə səyi ilə buna qarşı mübarizə aparılmasını təklif edib.

Məruzə ətrafında çıxış edən Lənkəran rayon prokuroru Elçin Məmmədov bildirib ki, "Qızların erkən nikaha daxil olması və rəsmi nikahdankənar doğum hallarının öyrənilməsinə dair" statistik məlumatlara əsasən 18 yaşadək erkən nikaha daxil olan qadınların təxminən 40 faizi şəhər, 60 faizi isə kənd yerlərində qeydə alınıb. Erkən nikahların əsas fəsadları körpə və ana ölümü hallarının çoxalması, boşanma faktlarının artması, qızların təhsil imkanlarının azalması, erkən nikahda olan qızların cəmiyyətdən təcrid olunması, onların daha çox fiziki və cinsi zorakılığa məruz qalması ilə nəticələnir.



Azərbaycanın bəzi bölgələrində olduğu kimi, Lənkəran rayonunda da az da olsa, gizli şəkildə erkən nikaha şəraitin yaradılması hallarına yol verildiyini söyləyən E.Məmmədov 16 yaşına çatmayan qız uşağı ilə ailə həyatı qurub, ər-arvad münasibətlərində yaşayan şəxslərin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 152-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb olunmalarının nəzərdə tutulduğunu diqqətə çatdırıb. Həmin maddənin sanksiyasında 3 ilədək, ağırlaşdırıcı hallarda isə 7 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub.

E.Məmmədovun sözlərinə görə, rayon Prokurorluğu və Şəhər-Rayon Polis Şöbəsi əməkdaşlarının birgə keçirdikləri müvafiq tədbirlər nəticəsində bu kimi əməllərə yol vermiş şəxslər müəyyənləşdiriləriək onların cinayət məsuliyyətinə cəlb edilmələri təmin olunub.

Çıxışının sonunda prokuror rayonun kənd və qəsəbələrində erkən nikahlarla bağlı qabaqlayıcı və profilaktik işlərin görülməsinin daha da gücləndirilməsinin vacibliyini xüsusi qeyd edib.

Mərkəzi Rayon Xəstəxanasının perinatal mərkəzinin doğum şöbəsinin müdiri Yeganə Nəhmətova, rayon ziyalısı, şəhər 4 saylı məktəb-liseyin müəllimi Sədaqət Talıbova, rayon ziyalısı, şəhər 8 saylı tam orta məktəbin direktoru Aslan İbrahimov, Lənkəran Dövlət Universitetinin ikinci kurs tələbəsi Rüqəyyə Muradlı və digərləri də çıxışlarında erkən nikahlara səbəb olan amilləri sadalayaraq ictimaiyyəti bununla bağlı mübarizəyə səsləyiblər.

İctimai müzakirəni yekunlaşdıran T.Qaraşov toplantı iştirakçılarını məsələ ilə bağlı fəal olmağa çağırıb.

**Ağaddin BABAYEV**

# İDEA-NIN AĞACƏKMƏ TƏŞƏBBÜSÜ



İDEA İctimai Birliyinin ağacəkmə təşəbbüsü ölkənin hər yerində olduğu kimi, Lənkəranda da geniş vüsət alıb. İctimai Birliyin təşəbbüsünə dəstək olaraq Lənkəran ŞİH başçısının 13 oktyabr 2017-ci il tarixli sərəncamına əsasən 15 oktyabr 2017-ci il tarixdən 15 noyabr 2017-ci il tarixədək olan müddətdə rayonda yaşıllaşdırma aylığı elan olunub. Artıq aylıqla bağlı tərtib olunmuş tədbirlər planının icrasına başlanıb. Tədbirlər planına uyğun olaraq 21 oktyabr 2017-ci il tarixdə Lənkəran ŞİH başçısı Taleh Qaraşovun, İcra aparatının məsul işçilərinin, müxtəlif idarə, müəssisə və təşkilatların əmək kollektivlərinin iştirakı ilə şəhərin Heydər Əliyev prospektində, Hava limanı qarşısında və magistral yolun Sütəmurdov kəndindən keçən hissəsində növbəti kütləvi ağacəkmə aksiyası keçirilib. Aksiya zamanı 2 minədək dəmirağac, küknar, xan çinarı və eldar şamı əkilib. Yeni əkilən ağaclar suvarılaraq dayaqlarla bərkidilib.

Ağac əkini davam etdirilir.

*Təbrik edirik!*

# PREZİDENT HADİ RƏCƏBLİNİ ORDENLƏ TƏLTİF EDİB



Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri **Hadi Musa oğlu Rəcəblinin** 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, siyasi elmlər doktoru, professor H.Rəcəbli respublikanın ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif edilib.

Yüksək mükafat və eləcə də 70 illik yubileyi münasibətilə bütün lənkəranlılar, çoxminli seçicilər adından həmyerlimizi – tanınmış ictimai-siyasi xadimi ürəkdən təbrik edir, ona çətin və şərəfli fəaliyyətində yeni uğurlar, möhkəm cansağlığı, uzun ömür diləyirik!

**"Lənkəran" qəzetinin yaradıcı kollektivi**

# "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF OLUNUB



Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kənd təsərrüfatı işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyəti ilə əlaqədar "Tərəqqi" medalı ilə təltif edilmiş şəxslərin arasında Lənkəran Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin direktoru **Təyyub Əyyub oğlu Rzayevin** də adı vardır.

Yüksək mükafat münasibətilə həmyerlimizi təbrik edir, ona yeni uğurlar diləyirik!

**"Lənkəran" qəzetinin yaradıcı kollektivi**

*12 Noyabr Konstitusiya günüdür*

# XOŞBƏXT GƏLƏCƏYİN QARANTI

***(publisistik düşüncələr)***

Dövlətimizin Ali Qanunu – Konstitusiya haqqında öz qeydlərimi yazanda uzun illər gələcəyimizin tərbiyəsi ilə məşğul olan təqaüdçü bir müəllimin söhbətini xatırladım. O deyirdi: – Biz həyatın hər üzünü görmüşük. Ağlı-qaralı günlər yaşamışıq. Çox vaxt adi vətəndaş hüquqlarımız tapdalanıb. Sərbəstliyimiz, azadlığımız məhdudlaşdırılıb. Müstəqilliyə qovuşandan sonra həyatımız tamam başqa məcraya yönəldi. İlk öncə ictimai-siyasi sabitlik hamımıza sərbəst yaşamaq, azad əməklə məşğul olmaq imkanı verir. Bir sözlə, Ulu Öndərimiz Heydər Əliyevin başladığı və cənab Prezident İlham Əliyevin böyük uğurla davam etdirdiyi siyasi kursun məntiqi nəticəsi olaraq ölkəmizdə yaxşı yaşamaq və işləmək, ağlın, zəkanın imkanlarından istifadə etmək üçün hər cür şərait yaradılıb. Təbii ki, bu, Konstitusiyamızın xalqımıza bəxş etdiyi töhfə kimi qəbul olunmalıdır. Gənclərimiz bu töhfədən maksimum yararlanmalı, doğma vətənin tərəqqisinə, yüksəlişinə əmək sərf etməli, mənsub olduğu xalqın, vətənin layiqli övladı kimi özünü doğrultmalıdırlar...




Hələ də təqaüdçü müəllimin ürəyindən gələn, Vətən sevgisi və el-oba təəssübkeşliyindən qaynaqlanan sözlərinin təsiri altındayam. Düşünürəm ki, doğma torpağı zaman-zaman bölünən, parçalanan, təbii sərvətləri həmişə yadellilərin diqqət mərkəzində olan, vətən uğrunda ölüm-dirim savaşına girən, saysız-hesabsız şəhid verən, yıxılan, əzilən və yenə də özündə qüvvə tapıb ayağa qalxan xalqımız öz milli varlığını, mənəvi dəyərlərini qoruya bilib. Əsrlər boyu böyük tarixi mərhələlərdən keçərək nəhayət ötən əsrin 90-cı illərində çoxdan arzuladığı dövlət müstəqilliyinə qovuşub. Lakin müstəqillik heç də asan başa gəlmədi. Yenidən tarixin, zamanın ədalətsizliyi ilə qarşılaşdıq. Bədnam qonşularımız, necə deyərlər öz qapımızda duz-çörəyimizə nankor çıxaraq "qırmızı imperiya"nın havadarlığı ilə əzəli və əbədi torpağımız olan Qarabağ problemini yaratdılar. Lakin bütün çətinliklərə baxmayaraq Azərbaycan xalqının alovlu vətənpərvər oğlu, Ümummilli Lider Heydər Əliyev ömrünün qalan hissəsini də doğma xalqına həsr edərək onun milli varlığını, dövlətçiliyini qoruyub rəvan inkişaf yoluna çıxartdı.

Öz tarixi müstəqilliyinə qovuşan xalqın qarşısında indi dövlət təsisatlarının yaradılması, hüquqi və demokratik dövlət quruculuğu kimi mühüm vəzifə dururdu. Yalnız xalqın iradəsini ifadə edən Konstitusiya bu mühüm vəzifəni yerinə yetirə bilərdi. Demokratik cəmiyyət quruculuğu xətti tutan ölkəmizin ilk növbədə mükəmməl qanunlara böyük ehtiyacı vardı. Köhnə sovet qanunları artıq müasir dəyərlərə cavab vermirdi. Demokratik islahatlar yeni Konstitusiyanın tezliklə qəbul olunmasını tələb edirdi. 1994-cü ilin axırları, 1995-ci ilin əvvəllərində müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının yaradılması ilə bağlı məsələ gündəmə gəldi. Prezident Heydər Əliyevin sədrliyi ilə xüsusi komissiya yaradıldı. Mütəxəssislərdən ibarət işçi qrupu layihənin ilkin mətnini hazırlamağa başladı. Konstitusiya komissiyasının sədri Prezident Heydər Əliyevin rəhbərliyi ilə keçən komissiyanın ilk iclasında layihədə ümumbəşəri dəyərlərin, xalqın tarixi keçmişinin və son illərin təcrübəsinin ciddi nəzərə alınması bir vəzifə olaraq qarşıya qoyuldu. Xarici dövlətlərin ölkəmizdəki səfirlərinin iştirakı ilə keçən həmin iclasda Heydər Əliyev qəbul olunacaq yeni Konstitusiyanın əsas prinsiplərini diqqətə çatdırdı. Birmənalı şəkildə demək olar ki, layihənin müəllifi Ümummilli Lider Heydər Əliyevin özü idi. Hər bir fəsil və maddənin yazılmasına qədər gərgin əmək sərf edən Ulu Öndərin müəllifi olduğu bu layihə 1995-ci ilin oktyabrın 15-də mətbuatda dərc olunaraq ümumxalq müzakirəsinə verildi. Cəmiyyətin demək olar ki, bütün təbəqələri bu müzakirədə fəal iştirak etdi. Təkliflər nəzərə alınmaqla layihənin yekun variantı 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olundu.

Müstəqil Azərbaycanın ilk Konstitusiyası dövlət hakimiyyətinin hakimiyyətlərin bölgüsü prinsipi əsasında təşkil oldunduğunu müəyyən etdi. Təkcə bir faktı demək kifayətdir ki, Konstitusiyanın 158 maddəsindən 57-də və 3 fəsildən birində insan hüquq və azadlıqları təsbit edilirdi ki, bu da gənc müstəqil Azərbaycanın demokratik və hüquqi cəmiyyət quracağından xəbər verirdi. Konstitusiyanın əsas prinsipləri azad və müstəqil Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmışdı. Bu ali sənəd ölkədə həyata keçirilən hüquqi və demokratik islahatlar üçün möhkəm bir təməl yaratdı.

Qeyd etməliyik ki, müstəqil Azərbaycan Respublikasının əldə etdiyi bugünkü uğurların, nailiyyətlərin hüquqi başlanğıcında məhz Ümummilli Lider Heydər Əliyevin məhv olmaqdan xilas etdiyi Azərbaycanın ilk Konstitusiyası dayanır. Təsadüfi deyil ki, indi müstəqillik yollarında inamla addımlayan Azərbaycanın beynəlxalq nüfuzu gündən-günə artır. Ölkəmiz nəinki Qafqazda, həm də dünyada lider dövlətlərin birinə çevrilib. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları çərçivəsində ölkənin hər yerində irimiqyaslı tikinti-abadlıq işləri aparılır. Azərbaycanın regionları yüksəliş və tərəqqi dövrünü yaşayır. Bu sahədə doğma Lənkəranımızın da qazandığı uğurlar qəlbimizi iftixar hissi ilə doldurur. Hər bir Azərbaycan vətəndaşı Konstitusiyanın verdiyi imkanlardan istifadə edərək öz firavan və xoşbəxt həyatını qurmaq üçün azad fəaliyyətlə məşğul olur. Eyni zamanda, yaşadığı kəndin, rayonun, şəhərin və bütövlükdə doğma Azərbaycanın tərəqqisinə öz töhfəsini verir.

İlk Ali Qanunu qəbul etməklə dövlətimiz Azərbaycan xalqının, bütün cəmiyyətin və hər kəsin firavanlığını, azadlığını və təhlükəsizliyini təmin etdi. Bu ali sənəd həm də xalqımızın dünyəvi, milli-mənəvi prinsipləri rəhbər tutaraq seçdiyi gələcək yolun göstəricisi oldu. Zaman keçdikcə Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi, onun müasir tələblərə uyğunlaşdırılması zərurəti meydana çıxırdı. Məhz 2002, 2009 və 2016-cı illərdə Konstitusiyaya dəyişikliklərin edilməsinə yaranan ehtiyac da məhz bütün sahələrdə əldə olunmuş sürətli inkişafdan irəli gəlirdi. Bu inkişafın mənbəyi olan Xalq-İqtidar həmrəyliyini ehtiva edən ümumxalq səsverməsi Prezident İlham Əliyevin dövlət quruculuğu, demokratikləşmə proseslərində, insan hüquq və azadlıqlarının qorunmasında yeni imkanlar yaradan siyasətinin xalq tərəfindən birmənalı şəkildə dəstəkləndiyini bir daha təsdiq etdi.

Azərbaycan Konstitusiyası xalqa nə verdi? Bu suala cavab almaq üçün ayrı-ayrı vətəndaşlara müraciət etdik. Yekdil fikir bu idi ki, Azərbaycan Konstitusiyası işıqlı, nurlu gələcəyimizin qarantıdır.

**Xudaverdi CAVADOV**

*9 noyabr Dövlət Bayrağı Günüdür*

# ANDIMIZ, VÜQARIMIZ - BAYRAĞIMIZ

***Bizim bayrağımız bizim müstəqilliyimizin rəmzidir, bizim bayrağımız bizim qürur mənbəyimizdir, bizim canımızdır, bizim ürəyimizdir. Azərbaycan bayrağı Dağlıq Qarabağda, Şuşada və bu gün hələ də işğal altında qalan başqa torpaqlarımızda dalğalanacaq...***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycan Respublikasının dövlət rəmzlərindən (himn və gerblə birlikdə) biri olan üçrəngli bayrağımız ilk dəfə 9 noyabr 1918-ci ildə müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası tərəfindən təsdiq edilib. Məhz həmin bayrağı 1990-cı ildə hələ SSRİ dağılmamış Ulu Öndərimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetində dövlət bayrağı kimi bərpa edib. 1991-ci il oktyabrın 18-də isə Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən dövlət bayrağını təsdiq edib.

Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan (yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir) ibarətdir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilib. Bayrağın göy rəngi türkçülüyü, qırmızı müasir azadlıq ideologiyasını, yaşıl rəng isə islamçılığı tərənnüm edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 18-də imzaladığı



sərəncamla 9 noyabr tarixi Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur.

2010-cu il sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Dövlət Bayrağı Meydanının - Bakı şəhərinin Bayıl sahəsində yerləşən memorial abidə-istirahət parkının təntənəli açılışı olub. Meydanda inşa olunmuş bayraq dayağının hündürlüyü 162 m, bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadrat metr, çəkisi isə təqribən 350 kiloqramdır. Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb. Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.

Respublikanın bir sıra bölgələrində olduğu kimi, Lənkəran şəhərində də Bayraq Meydanı qurulub. Meydan şəhərin giriş hissəsində, Heydər Əliyev prospektində yerləşir. Bayraq dirəyinin hündürlüyü 70, bayrağın uzunluğu 20, eni isə 10 metrdir. Təbii mərmərlə üzlənmiş iki metr hündürlüyündəki postamentin üzərində Azərbaycanın dövlət himni və gerbi əks olunub. Burada, həmçinin Azərbaycanın Dövlət Bayrağı, himni, gerbi, 1843-cü il mayın 2-də təsdiq edilmiş Lənkəran şəhərinin gerbi barədə məlumatların əks olunduğu guşələr yaradılıb. Bundan başqa, burada Azərbaycan Prezidenti İlham Əliyevin dövlət bayrağına ehtiramını əks etdirən ayrıca guşə də fəaliyyət göstərir.

Qeyd edək ki, 31 iyul 2012-ci ildə Prezident İlham Əliyev cənub bölgəsinə səfəri çərçivəsində Lənkərandakı Bayraq Meydanının açılışında iştirak edib və burada yaradılan şəraitlə tanış olub. Fəxrlə deyə bilərik ki, Lənkəran şəhərindəki Bayraq meydanı bu gün hər bir lənkəranlı gəncin and yeridir.

Bayrağımız qürur mənbəyimiz, canımız, ürəyimizdir. Bu gün Azərbaycanın hər yerində Dövlət bayrağımız dalğalanır. Azərbaycanın ərazi bütövlüyü bərpa edildən sonra milli Dövlət bayrağımız işğaldan azad olunan torpaqlarımızda da dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmaqdayıq. Üzərimizə düşən vəzifələrin icrası, hər işdə öncül, layiqli vətəndaş olmaq üçün üçrəngli bayrağımıza and içirik.

**Ağaddin ŞAĞLASERLİ**

## "LANKARAN FOREST" ƏTRİ DÜNYANIN TİCARƏT ŞƏBƏKƏLƏRİNİ FƏTH EDİB








İtaliyanın məşhur lüks ətriyyatçısı Mariya Kandida Gentile yeni brendinin adını Lənkəran meşələrinin şərəfinə "LANKARAN FOREST" adlandırıb. Belə ki, ətriyyatçı 2014-cü ilin dekabr ayında Lənkəranda səyahətdə olarkən bu diyarın təbiətinə valeh olub. Yarımsubtropik iqlimdən, Talış meşələrində bitən ekzotik bitki nümunələrindən, o cümlədən dəmirağac, çay, sitrus plantasiyalarından ilham alan Mariya Kandida Gentile insan bədəninin adrenalini artırmağa qadir olan "Lankaran Forest" brendini yaradıb. Ətirin kütləvi nümayişi isə 2015-ci ilin martında Buta İncəsənət Mərkəzinin təşkilatçılığı ilə Londonda keçirilən II Buta Azərbaycan İncəsənəti Festivalında baş tutub. Dünyanın 12 ölkəsinin ticarət şəbəkələrini fəth edən "LANKARAN FOREST" ətirlərinin ruhuna sanki Lənkəran meşələrinin ətri və qoxusu hopub.

Qeyd edək ki, parfümer Mariya Kandida Gentile həmçinin 2016-cı ilin oktyabr ayında Florensiyada keçirilən Pitti Fragranze sərgisində Azərbaycana həsr olunan "Lankaran Forest" ətirini təqdim edib.

**Ağaddin BABAYEV**

*Ölkə mətbuatı səhifələrində*

## LƏNKƏRANIN SİTRUS BAĞLARINDA YENİ HALLABONG MEYVƏSİ YETİŞDİRİLİR

Prezident İlham Əliyev bu ilin sentyabr ayında Lənkəran rayonuna səfəri çərçivəsində bölgənin bir sıra təsərrüfatları, o cümlədən "Gilan Sitrus" MMC-nin bağları ilə də tanış olub. Dövlət başçısı ilə təsərrüfat nümayəndələrinin söhbətlərində qeyd olunub ki, ərzaq təhlükəsizliyinin təmin olunmasında və kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılmasında sitrus bağlarının salınmasının xüsusi əhəmiyyəti var.



Qeyri-neft sektorunun aparıcı qolu olan kənd təsərrüfatının şaxələndirilməsi Lənkəran rayonunun fermerlərinə daha geniş fəaliyyət göstərməyə imkan vermişdir.



"Gilan Sitrus" meyvəçilik təsərrüfatının yaradılması ideyası da aqrar sektora verilən bu önəmdən, unudulmuş kənd təsərrüfatı sahələrinin dirçəldilməsinə göstərilən dəstəkdən sonra irəli gəlmişdir.

Belə ki, bu təsərrüfatın cəmi 3 yaşı var. Təsərrüfat naringi ilə portağalın calağından əmələ gəlmiş hallabong meyvəsi ağaclarının Cənubi Koreyadan gətirilərək Lənkəran torpağında "məskunlaşdırılması" ilə 2015-ci ildə yaradılmışdır.

100 hektar sahədə salınmış cavan bağlar keçən il ilk barını vermişdir. Mövsümdə 2000 tona qədər məhsul götürülmüşdür.

Bu il hallabongların ağaclardan dərilməsinə noyabr ayında başlanacaq. Bağlara yüksək aqrotexniki qaydalara qulluq edildiyindən budəfəki məhsulun daha bol olacağı gözlənilir. Bağbanlar ağaclarda 10 tona qədər hallabong məhsulunun olduğuna əmindirlər.

Fermerlər indidən gələn ilin məhsulunun da qayğısına qalırlar. Hazırda bağlarda qışa hazırlıq işləri görülür. Körpə ağaclara mineral dərmanlar vurulur, onların üstü polietilenlə örtülür ki, şaxtadan zərər çəkməsinlər.

***Şəkillərdə:*** təsərrüfatın rəhbəri Vaqif Süleymanov və baş mütəxəssis Rahab Əmirli barı yetişmiş bağlara baş çəkir, mütəxəssislər yeni quraşdırılmış suvarma sistemini nəzərdən keçirirlər.

**Fərman BAĞIROV (foto),**
*("Azərbaycan" qəzeti, 22 sentyabr 2017-ci il).*



## Qışa hazırsınızmı?

# GÖSTƏRİCİLƏR NİKBİNLİKDƏN XƏBƏR VERİR

***Qış insanları həmişə ciddi sınaqlara çəkir. Bu sınaqlardan uğurla çıxmaq üçün tədbirli insanlar hər il əvvəlcədən payız-qış mövsümünə ciddi hazırlaşırlar. Artıq sinoptiklər indidən qarşıdakı qışın da soyuq keçəcəyi ilə bağlı proqnozlarını veriblər.***

Bəs Lənkəranda qış mövsümünə hazırlığın vəziyyəti necədir? Bu sualın cavabını tapmamışdan öncə oktyabrın 12-də Heydər Əliyev Mərkəzində Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) başçısı yanında Şuranın geniş tərkibdə iclasında 2017-ci ilin 9 ayı ərzində Lənkəran rayonunun sosial-iqtisadi inkişafı sahəsində görülmüş işlər və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin cari ilin 9 ayının yekunlarına həsr olunmuş iclasındakı çıxışından irəli gələn vəzifələrlə bağlı məsələnin müzakirəsi zamanı Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşovun payız-qış mövsümünə hazırlıqla bağlı rayonun müvaviq idarə və təşkilatları qarşısında qoyduğu vəzifələri xatırlatmağı məqsədəuyğun hesab etdik. İcra başçısı Şura iclasında məsul şəxslərdən bir daha tələb etdi ki, qış mövsümünə hazırlıq işlərinin vaxtında başa çatdırılmasına nail olsunlar.

Qarşımızda ayrı-ayrı qurumların payız-qış mövsümünə hazırlığın vəziyyəti barədə məlumatlar var. Bəri başdan deyək ki, məlumatlardakı bütün göstəricilər nikbinlikdən xəbər verir. Yəni, qış mövsümünü alnıaçıq, üzüağ başa vurmaq üçün kifayət qədər iş görülüb.

İndi də gəlin statistik rəqəmlərə müraciət edək.

Lənkəran Elektrik Şəbəkəsindən verilən məlumata görə, qurumun xidməti ərazisində bütün 0.4, 10, 35 və 110 kv-luq hava xətlərinə və yarımstansiyalara baxış keçirilib, istismara yararsız müxtəlif növlü 890 ədəd izolyator, 535 ədəd elektrik dirəyi yenisi ilə əvəzlənib, yarımstansiyalarda transformatorlara və yağ açarlarına 2.6 ton transformator yağı əlavə edilib, 16180 metr istismara yararsız naqil AC-50 markalı naqillərlə əvəz olunub, yeni SİP kabelləri çəkilməklə hava xətləri ağac budaqlarından təmizlənib və 88 ədəd 10/0.4 kv-luq transformator yarımstansiyalarında əsaslı və cari təmir işləri aparılıb. Rayonun Şıxəkəran, Osakücə və Günəhir kəndlərində 2 faza ilə işləyən transformatorlar dəyişdirilib, Gərmətük qəsəbəsində sıradan çıxmış transformator 400 kva-lıq transformatorla əvəzlənib, eləcə də həmin məhəllədə əlavə olaraq bir ədəd 400 kva gücündə transformator yarımstansiyası quraşdırılıb. İstisu qəsəbəsində isə gərinlik aşağı olan ərazidə 160 kva transformator daha güclüsü ilə əvəz edilib. Daşdatük kəndinin yeni yaşayış məhəlləsində bir ədəd 160 kva transformator quraşdırılaraq yeni 10 kv-luq xətt çəkilməklə şəbəkəyə qoşulub. Rayonun müxtəlif yaşayış məntəqələrində yeni abonentlər üçün 12 ədəd Smart kart tipli, 660 ədəd elektron tipli yeni bir fazalı sayğac quraşdırılıb, 2642 ədəd sayğac elektron tipli sayğacla əvəz olunub. Ümumilikdə indiyə kimi rayon ərazisində 16894 ədəd Smart kart tipli sayğac quraşdırılıb.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən "Azərişıq" ASC tərəfindən rayonda aparılan yenidənqurma işləri ilə əlaqədar 110/35/10 kilovoltluq Lənkəran 1 yarımstansiyasından qidalanan Hirkan və Xanbulan hava xətləri üçün 9 ədəd ikidövrəli dayaq qaldırılıb, dayaqlararası 7200 metr yeni naqil çəkilib. Eyni zamanda, Liman şəhəri, Ürgə, Şirinsu, Şağlaser, Xarxatan, Səpnəkəran, Yuxarı Nüvədi, Şürük, Tütəpeştə, Xolmili kəndləri ərazisində 3418 ədəd 0,4 kv-luq dayaq basdırılıb, 92860 metr SİP kabel xətləri çəkilib. Hazırda 35/10 Səpnəkəran yarımstansiyasından çıxan və rayonun 12 yaşayış məntəqəsini qidalandıran 10 kv-luq hava xətləri tam yenidən qurulur. Payız-qış mövsümündə yarana biləcək qəzaların aradan qaldırılması üçün şəbəkədə işçi personalları təyin edilib, maşın-mexanizmlər işlək vəziyyətə gətirilib və şəbəkənin anbarında lazımi mal-materialları ehtiyatı tədarük edilib.

Lənkəran Regional Qaz İstismar İdarəsinin Lənkəran Xidmət Sahəsindən aldığımız məlumata görə, mövsümə hazırlıqla əlaqədar qaz paylayıcı stansiyalarda yenidənqurma işləri aparılıb, istismara yararsız 3 ədəd qaz tənzimləyici şkaf yenilənib, 5 ədəd qaz tənzimləyici demontaj olunub, 300 poqonmetr köhnəlmiş qaz xətti istismardan çıxarılıb, 130 ədəd fərdi qaz tənzimləyicisinə texniki xidmət göstərilib, həmçinin Liman şəhəri ərazisində 380 poqonmetr qaz xətti təmir-bərpa edilib,




491 ədəd istismar müddəti bitmiş məişət qaz sayğacları təzələnib, 107 abonentin qaz xətti bir pilləli şəbəkəyə qoşulub. Bununla yanaşı, şəhərin Şəhidlər Xiyabanı küçəsində 1442 poqonmetr yeni qaz xətti çəkilib, 8 ədəd qaz tənzimləyici şkaf quraşdırılaraq istifadəyə verilib.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində "Azəriqaz" İstehsalat Birliyinin tikinti təşkilatları tərəfindən rayonun Haftoni qəsəbəsində yeni qaz xətlərinin çəkilişi davam etdirilib və yaxın vaxtlarda 430 yaşayış evinə mavi yanacağın verilməsi nəzərdə tutulub. Ümumilikdə isə Dövlət Proqramına əsasən indiyədək rayon üzrə qazlaşdırılması nəzərdə tutulan 76 yaşayış məntəqəsindən 65-i, eləcə də ev təsərrüfatlarının sayına görə 46862 abonentdən 43814-ü, yəni 93,5 faizi qazlaşdırılıb. Bundan əlavə, Lənkəran rayonu üzrə qazlaşdırılması vacib olan daha 4 yaşayış məntəqəsinə – Moloja, Mollakənd, Şovu və Xanlıqlı kəndlərinə qaz xəttinin çəkilməsi ilə bağlı layihə-smeta sənədləri hazırlanaraq aidiyyəti təşkilatlara təqdim olunub.

Payız-qış mövsümünə hazırlıqla əlaqədar Lənkəran Sukanal İdarəsi tərəfindən də şəhərin içməli su təchizatı və kanalizasiya sisteminin işini yaxşılaşdırmaq üçün müəyyən işlər görülüb. Belə ki, Xanbulan-Lənkəran ana su xəttinin qəzalı vəziyyətdə olan hissələrində, şəhərin ayrı-ayrı küçələrində yerləşən yaşayış binalarına xidmət göstərən su və kanalizasiya nasos stansiyalarında təmir işləri aparılıb, bir sıra çoxmənzilli yaşayış binalarının zirzəmi hissəsində sıradan çıxmış kanalizasiya boruları yenisi ilə əvəzlənib. Şəhər ərazisində yeraltı çəkilmiş su xətlərində baş vermiş qəzalarla bağlı qazılmış asfalt örtükləri şəhər İcra hakimiyyətinin köməkliyi ilə bərpa olunub, "Azərsu" ASC tərəfindən rayona ezam olunmuş xüsusi təyinatlı avtomaşınla şəhərin magistral kanalizasiya xətləri və baxış quyuları yuyularaq təmizlənib, sıradan çıxmış 10 ədəd lük komplekti yenisi ilə əvəzlənib, digər avadanlıqlardakı nasazlıqlar aradan qaldırılıb.

Dövlət Proqramına əsasən tikinti şirkəti tərəfindən rayonda ümumilikdə 252500 poqonmetr müxtəlif diametrli su xətləri çəkilib, 12700 ədəd "Smart" kart tipli su sayğacı quraşdırılıb və 12600 ədəd sayğac aktivləşdirilərək əhaliyə içməli suyun verilməsi təmin olunub. Cari ildə rayonun şəhərə bitişik daha 4 yaşayış məntəqəsinə, Şilavar, Digah, Sütəmurdov və Velədi kəndlərinə işməli suyun verilməsi nəzərdə tutulub.

Sukanal idarəsinə məxsus bütün maşın-mexanizmlər əsaslı təmir olunaraq payız-qış mövsümü ilə əlaqədar işlək vəziyyətə gətirilib və hazırda bu istiqamətdə işlər davam etdirilir.

"48 nömrəli Yol İstismar" MMC-dən verilən məlumata görə, mövsümə hazırlıqla bağlı idarənin balansında olan avtomobil yollarında yaranmış çalalara asvaltbeton çəkilib, çınqıl örtüklü yollarda genişləndirmə-hamarlama işləri aparılıb, suötürücü borular, küveytlər palçıqdan təmizlənib, körpü məhəccərləri rənglənib və yeni yol nişanları quraşdırılıb. Şəhər İcra Hakimiyyətinin yaxından köməkliyi ilə rayonun ucqar dağ kəndləri olan Vilvan-Osakücə-Türkəncil, Tükəvilə-Diryan-Gəgiran və Hirkan-Daşdatük-Biləsər avtomobil yollarına qum-çınqıl materialı tökülərək ağır texnikalar vasitəsi ilə hamarlama və genişləndirmə işləri aparılıb, yol kənarlarında mövcud küveytlər bərpa edilməklə nəqliyyatın hərəkəti üçün normal şərait yaradılıb. İdarədə nəqliyyat vasitələrinin normal işini təmin etmək üçün 4000 litr dizel və 1500 litr benzin yanacağı materialları tədarük edilib, maşın və mexanizmlər saz vəziyyətə gətirilib, işçilər xüsusi geyimlərlə təmin olunub.

Lənkəran Yuxarı Xanbulançay Hidroqovşağı İstismar İdarəsindən redaksiyamıza bildirilib ki, Melioservis idarəsinin texnikalarından da istifadə etməklə rayonun qəsəbə və kəndlərindəki kanal və kollektorlarda 437 min metr/kub həcmində lildən təmizləmə və qazma, 259 min metr/kub torpaq hamarlama və dambaların bərkidilməsi işləri görülüb. Hazırda Boladi kollektorunda tamamlama işləri aparılır. Qış mövsümünə hazırlıqla bağlı çaylarda və kanallarda bəndlərin açılması, sututarlarda suyun minimuma endirilməsi və sel sularının axıdılması üçün maneəsiz şəraitin yaradılması nəzərdə tutulub. İdarənin maşın və mexanizmləri payız-qış mövsümünə tam hazır vəziyyətə gətirilib.

Lənkəran Telekommunikasiya Qovşağından aldığımız məlumatda deyilir ki, burada qida qurğularında və generatorlarda, eləcə də elektron avtomat telefon stansiyalarında bir sıra təmir işləri aparılıb. Rayonun bir sıra yaşayış məntəqələrində elektron avtomat telefon stansiyalarının dizel generatorları təmir edilib, ATS-lərin dizel generatorlarının akkumlyator batareyaları yenilənib, elektron avadanlıqların sabit, dəyişən cərəyan paylayıcı birləşmə və kontaktlarında təmizləmə, bərkitmə işləri aparılıb. Beynəlxalq şəhərlərarası və stansiyalararası alternativ rabitənin normal işləməsi daim nəzarətdə saxlanılır. Qovşağın rabitə obyektlərinin şaxta quyularına qazın və suyun daxil olmasının qarşısını almaq məqsədi ilə kanalların germetik bağlanması təmin edilib. Qovşağın mərkəzi obyektlərinin 550 litr, digər obyektlərdə, o cümlədən kənd ATS-nin isə minimum 50 litr yanacaq ehtiyatı ilə təmin olunması məqsədi ilə Telekommunikasiya Qovşağı tərəfindən aidiyyəti üzrə "Aztelekom" MMC-yə müraciət olunub və mövsümlə əlaqədar xüsusi qəza birqadaları yaradılıb.

Şəhər Təhsil Şöbəsinin verdiyi məlumatdan aydın olur ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar rayonun təhsil müəssisələrində köhnəlmiş, sıradan çıxmış qapı, pəncərə və döşəmələr dəyişdirilib, dam örtükləri təmir edilib, sinif otaqlarında ağartma-rəngləmə işləri aparılıb, elektrik xətlərindəki nasazlıqlar aradan qaldırılıb, odun yanacağı ilə qızdırılan məktəblərin bir qismi soba ilə təmin olunub və bu istiqamətdə işlər davam etdirilir. Şəhər Təhsil Şöbəsinin tabeçiliyindəki 89 ümumtəhsil, 5 məktəbdənkənar tərbiyə müəssisəsinin 33-nün qazanxanası təbii qazla, 2 məktəbin qazanxanası soba yanacağı, 54 məktəb və 5 məktəbdənkənar tərbiyə müəssisəsi isə odun yanacağı ilə qızdırılır. Şöbə üzrə 72 min 385 manat pul vəsaiti odun və dizel yanacağı, 68 min 600 manat elektrik enerjisi və 90 min manat qaz yanacağı üçün ayrılıb. Oduncaqla qızdırılan məktəblərin hamısı yanacaqla təmin olunub, habelə dövlət vəsaiti hesabına rayonun Bəlləbur, Velədi, Kərgəlan, Səpnəkəran və Türkəkəran kənd məktəblərində təmir işləri aparılıb.

Mərkəzi Rayon Xəstəxanasında və onun şəbəkəsinə daxil olan səhiyyə müəssisələrində qışa hazırlıq işləri davam etdirilir. Təcili təxirəsalınmaz tibbi yardım stansiyasının binasında isə əsaslı təmir işləri aparılıb, təcili yardım maşınları saz vəziyyətə gətirilib. Bununla yanaşı, rayonun şəhər, qəsəbə və kəndlərindəki səhiyyə müəssisələrində cari təmir işləri aparılıb, doğum şöbələrində rəngləmə-ağartma işləri görülüb, tüstü bacaları təmizlənib, elektrik xətlərində olan nasazlıqlar aradan qaldırılıb. Mövsümə hazırlıqla əlaqədar 76 səhiyyə müəssisəsindən 24-ü odun yanacağı, 18-i elektrik qızdırıcısı, 31-i isə soba peçləri ilə təmin olunub və həmin müəssisələrdə soba yanacağı ehtiyatı yaradılıb. Qalan 3 səhiyyə müəssisəsi təbii qazla qızdırılır.

Artıq qış fəslinin gəlməsinə az qalıb. Havalar gün ərzində bir neçə dəfə dəyişir. Bəzən buludların arxasından boylanan günəş ilıq şüalarını ətrafa səpələyir.

Lənkəran əhalisi isə nikbindir. Onlar inanırlar ki, növbəti payız-qış mövsümündə rayonda heç bir problemlə üzləşməyəcəklər.

**Ağaddin BABAYEV,**
**"Lənkəran"ın müxbiri.**

## 14 noyabr Ümumdünya Diabetlə Mübarizə Günüdür

# XƏSTƏLİK, YOXSA YAŞAM TƏRZİ?

***Hər il yer üzündə vəfat edən insanların 5 faizi məhz diabet nəticəsində dünyasını dəyişir. Ümumdünya Diabet Günü - diabet dünyasının ilkin məlumatlandırma kampaniyasıdır.***

Hər il noyabrın 14-ü Ümumdünya Diabetlə Mübarizə Günü kimi qeyd olunur. Məqsəd diabetlə bağlı qlobal məlumatlılığın artırılması və bu xəstəliyin artması yollarını aramaqdan ibarətdir.

Məhz niyə noyabrın 14-ü? Bunun maraqlı və ibrətamiz tarixçəsi var. Dostunun gənc yaşda dünyasını dəyişməsi ilə kanadalı fizioloq Frederik Bantinq elmi axtarışlara başlayır. Axtarışlar uğurla başa çatır. 1922-ci ildə gənc alim, dostunun ölümünə səbəb olan eyni xəstəliyə düçar olmuş 14 yaşlı oğlana insulin inyeksiyası tətbiq edərək onun həyatını xilas edir. Həmin ildə insulin preparatının hazırlanması üzrə hüquqları Kanada Tibbi Araşdırmalar Mərkəzi öz üzərinə götürərək preparatın satışını həyata keçirir və XX əsrin biokimya və tibb sahəsinin ən böyük nailiyyəti kimi F.Bantinq bu kəşfə görə Nobel mükafatı ilə təltif olunur. Bantinqin və onun həmkarı Çarlz Bestin bu kəşfi milyon insanın həyatını xilas edir.

Həm də kanadalı fizioloq Frederik Bantinqin doğum günü 14 noyabr, 1991-ci ildən etibarən Şəkərli Diabetlə Beynəlxalq Mübarizə Günü kimi təqvimə daxil edilib.

Diabet insan həyatı üçün, bütövlükdə cəmiyyət, dünya üçün ciddi təhlükə törədən, kəskin ağırlaşmalarla müşaiyət olunan, müalicəsi çoxlu vəsait tələb edən xroniki xəstəlikdir.

Beynəlxalq Diabet Federasiyasının məlumatına görə, bu gün dünyada 390 milyondan çox insan şəkərli diabetdən əziyyət çəkir. Ən pisi odur ki, bir o qədər də insan bu xəstəliyin daşıyıcısı və ya ona meyillilik qrupunda olduğu halda bundan xəbərsizdir. Dünya üzrə hər 10 saniyədə 2 nəfərə şəkərli diabet diaqnozu qoyulur, 1 nəfər isə bu xəstəlikdən dünyasını dəyişir.



Bütün dünyada olduğu kimi, Azərbaycanda da düzgün qidalanmamaq, qeyri-sağlam həyat tərzi artıq çəkiyə səbəb olur. Bu da şəkərli diabetin yaranmasına təkan verir.

Azərbaycanda təxminən 212 min 670 nəfərdən çox adam şəkərli diabetlə qeydiyyatdadır, onlardan uşaq və yeniyetmələr 1300 nəfərdir, I tip xəstələr isə 28 min nəfərdir. Xəstəliyin artımını müqayisə etmək üçün 2005-ci ilə olan statistikaya nəzər salsaq görərik ki, o vaxtı cəmi 56 min nəfər şəkərli diabet xəstəsi olduğu halda indi bu rəqəm ondan 4 dəfə çoxdur. Mütəxəssislərin fikrincə, bu xəstəlik tamam başqa xəstəliklə əlaqədar həkimə müraciət edildikdə aşkar edilir, amma o vaxta qədər bu xəstəlik insan sağlamlığına öz zərərini vurur. Ona görə də xəstəliyin geniş yayılmasının qarşısını almaq üçün hər bir insan öz sağlamlığına biganə qalmamalı, vaxtında müalicə müəssisələrində özünü yoxlatmalı və müayinədən keçməlidir. Tibbi araşdırmalara görə, şəkərli diabetə meyilli olan insanlar qabaqlayıcı tədbirlər görməklə bu xəstəliyə tutulmaqdan xilas ola bilirlər. Həmin xəstəliklə əlaqədar pasiyentə nə qədər tez diaqnoz qoyularsa, müalicə tez başlanarsa, ağır və çox xərc tələb edən fəsadlar xeyli azalar.

Azərbaycan dövləti bu xəstəlikdən əziyyət çəkən insanlara xüsusi diqqət ayırır. Bu istiqamətdəki fəaliyyət dövlət başçısı tərəfindən təsdiqlənən "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Qanunla tənzimlənir.

Bundan əlavə, Prezidentin tapşırığına əsasən Səhiyyə naziri Oqtay Şirəliyev "2016-2020-ci illər üçün şəkərli diabet xəstəliyi üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi barədə əmr imzalayıb. Əmrdə şəkərli diabet üzrə "2016-2020-ci illər üçün Dövlət Proqramı" çərçivəsində həmin illər üzrə nazirliyin fəaliyyət planının təsdiqi, fəaliyyət planı üzrə icraçı qurumların rəhbərlərinə nəzərdə tutulmuş tədbirlərin vaxtında, keyfiyyətli həyata keçirilməsini təmin etmək və görülən işlər barədə Səhiyyə Nazirliyinə vaxtaşırı məlumatlar vermək barədə tapşırıqlar və s. məsələlər öz əksini tapıb.

Lənkəran Mərkəzi Rayon Xəstəxanasının həkim-endokrinoloqu Aygün Qasımovanın verdiyi məlumata görə, hazırda rayon üzrə 6174 diabet xəstəsi qeydiyyatdadır. Onlardan 20 nəfərə yaxını bu il dünyasını dəyişib. Dövlət Proqramı çərçivəsində rayondakı bütün xəstələrə özünənəzarət vasitələri, o cümlədən qlükometrlər və test-çubuqlar pulsuz olaraq paylanılıb və onların dərman təchizatı ilə bağlı problemi aradan qaldırılıb. A.Qasımovanın sözlərinə görə, bir müddət öncə respublika Diabet Cəmiyyətinin təşəbbüsü ilə yerlərdə şəkərli diabetdən əziyyət çəkən xəstələr üçün diabet məktəbləri fəaliyyət göstərib:" Yaxın gələcəkdə belə məktəblərin fəaliyyətlərinin davam etdirilməsi insanların bu xəstəlik barədə daha çox maarifləndirilməsinə imkan yaradacaq".

Həkimlər tez-tez belə bir ifadədən istifadə edir: "Diabet xəstəlik deyil, yaşam tərzidir". Bu o deməkdir ki, insan müəyyən qaydalara əməl etdikdə, xəstəliyin onun həyatına olan mənfi təsirini minimuma çatdıra bilər.

Lakin əgər xəstə bu qaydalara əməl etməzsə və şəkərin səviyyəsi onun qanında daim yüksək olarsa, orqanizmin bir çox orqan və sistemlərində (böyrəklər, gözlər, qara ciyər, ürək-damar, sinir sistemi və s.) müxtəlif ağır pozulmalar inkişaf edəcək. Şəkərin qanda çox yüksək səviyyədə olması komaya səbəb ola bilər.

Pəhriz şəkərli diabet xəstələrinin müalicəsində ən önəmli rollardan birini oynayır. Hətta ən müasir dərmanları qəbul edən, lakin pəhriz saxlamayan diabet xəstəsi heç zaman öz xəstəliyinə lazım olan səviyyədə nəzarət edə bilməz.

Bir sözlə, hər bir şəkər xəstəsi bilməlidir ki, dərman müalicəsindən də öndə gələn sağlam həyat tərzidir.

**Ağaddin BABAYEV**

# LƏNKƏRANDA ERMƏNİ VANDALLARININ MƏHV ETDİYİ VƏ SAXTALAŞDIRDIĞI ABİDƏLƏRİMİZLƏ BAĞLI MÜZAKİRƏLƏR APARILIB

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi və "Şəfəq" Ekoturizm İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilən "Ermənistanın məhv etdiyi və tarixini saxtalaşdırdığı abidələrimiz haqqında beynəlxalq ictimaiyyəti məlumatlandırmaq üçün tədbirlərin təşkili" layihəsi çərçivəsində Lənkəranda təlim keçirilib.

Layihənin məqsədi erməni vandalları tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində məhv edilmiş və tarixi saxtalaşdırılmış abidələr haqqında beynəlxalq ictimaiyyəti məlumatlandırmaq olub.

Təlimdə 16 rayondan KİV-lərin və QHT-lərin nümayəndələri, dövlət orqanlarının əməkdaşları, ekspertlər iştirak ediblər.

"Şəfəq" Ekoturizm İctimai Birliyinin sədri Vamiq Babayev layihənin məqsədləri barədə danışaraq Ermənistanın işğalçılıq siyasəti nəticəsində tarixi abidələrimizin vəhşicəsinə dağıdılması və tarixinin saxtalaşdırılması ilə bağlı məlumat verib.



Digər çıxışlarda Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində və Qarabağda aparılmış son arxeoloji tədqiqatlar barədə məlumat verilib.

Təlimdən sonra iştirakçıların Astaranın Ərçivan kəndindəki Məhəmməd Hənəfiyyə məscidi (XIX əsr), qədim hamam (1806-cı il), Ləm (1906-cı il), Yanar bulaq, Lənkəran şəhərində Dairəvi qala (1747-ci il), Həzi Aslanovun ev muzeyi, Xan evi-Lənkəran Tarix-Diyarşünaslıq muzeyi (1913-cü il), Heydər Əliyev Xatirə parkına ekskursiyası təşkil edilib.

**A.ŞAĞLASERLİ**

# LƏNKƏRANLI MÜƏLLİM YÜKSƏK MÜKAFATA LAYİQ GÖRÜLÜB



Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə respublikanın təhsil işçilərindən bir qrupu dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Onların arasında Lənkəran şəhər 1 nömrəli tam orta məktəbinin müəllimi **Sevda Hacırza qızı Haşımova** da vardır.

Təbrik edirik!

*1 noyabr Kənd Təsərrüfatı işçiləri günüdür*

# SÜRƏTLİ İNKİŞAFA DOĞRU

***Məlum olduğu kimi, ölkəmizdə neft erası artıq arxada qalıb. İndi bütün diqqət qeyri-neft sektorunun, əsasən aqrar sektorun inkişafına yönəldilib. Rayonumuzda da bu mühüm sahədə son illər çoxlu faydalı işlər görülüb. Rayonda kənd təsərrüfatı idarəsinin yaradılması və fəaliyyətə başlaması xüsusi önəm kəsb edir. Əməkdaşımız bu günlərdə həmin idarədə olmuş və idarənin rəisi Tofiq Rzayevdən müsahibə almışdır. Həmin müsahibəni sizə təqdim edirik:***

- Bu ilin sentyabr ayında Lənkəran şəhərində ölkə başçısının sədrliyi ilə keçirilən respublika müşavirəsində cənab Prezident İlham Əliyev çayçılığın, unudulmuş sahə olan çəltikçiliyin və sitrus meyvələri istehsalının inkişaf etdirilməsi ilə əlaqədar dövlət dəstəyi hesabına görülən işləri diqqətə çəkmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalçıları ənənəvi əkinçilik növü olan çayçılıq, çəltikçilik, sitrus meyvələrinin istehsalı ilə yanaşı, tərəvəzçilik və heyvandarlıqla da məşğul olurlar.

Məlumat üçün bildirim ki, rayon ərazisində bu il havanın dəyişkən, ilin əvvəli sərt, yağmurlu, yayı isə normadan çox quraq keçməsinə baxmayaraq, 2017-ci təsərrüfat ilinin 9 ayı ərzində aqrar sahədə ayrı-ayrı fermerlər, sahibkarlar, kənd təsərrüfatı yönümlü idarə və müəssisələr tərəfindən kənd təsərrüfatı işlərinə böyük diqqət göstərilmiş, nəticədə çox böyük uğurlar qazanılmışdır. Belə ki, məhsul istehsalçıları tərəfindən 367,5 hektar sahədə buğda, 14 hektarda arpa, 35 hektarda xəsillik arpa, 579,5 hektarda kartof, 4748,5 hektarda tərəvəz, 245 hektarda qarğıdalı, 519 hektarda paxlalı bitkilər, 199,5 hektarda bostan, 28 hektarda günəbaxan, 526,5 hektarda çəltik əkini, 893,4 hektarda yonca və 5 hektarda toxumluq tərəvəz əkini keçirilib. Ümumilikdə rayon ərazisində payızlıq və yazlıq əkinləri də daxil olmaqla 8 min 161 hektar sahədə əkin keçirilib. Artıq 9 ay ərzində 702 ton buğda, 15,5 ton arpa, 4872 ton kartof, 76972 ton tərəvəz, 532 ton paxlalı məhsul, 786 ton qarğıdalı, 1560 ton bostan məhsulları, 12 ton günəbaxan, 1443 ton çəltik, 239 ton yaşıl çay yarpağı, həmçinin 7489 ton meyvə və 143 ton üzüm istehsal edilib.



Qeyd etdiyim kimi, son 10 ildə ölkə başçısının və rayon rəhbərliyinin yaxından diqqəti sayəsində rayonumuzda çayçılığın inkişafına böyük önəm verilib. Hazırda rayonda 568 hektar çay sahəsi mövcuddur ki, bunun da 450 hektarı yeni salınmış cavan sahələrdir. Sevindirici haldır ki, çayçılığın əvvəlki şöhrətini özünə qaytarmaq üçün kompleks tədbirlər həyata keçirilir. Plantasiyalarda yığım davam edir. Fabrikə göndərilən məhsul 240 tondan artıqdır. Müşavirədə çayçılığın daha sürətlə və müasir texnologiyalardan istifadə etməklə lap yaxın gələcəkdə rayonun fermer və sahibkarları tərəfindən mövcud çay plantasiyalarını ən azı 1000 hektara çatdırmaqla 4000 daimi iş yerinin açılması, müasir tinglik təsərrüfatlarının yaradılması, xüsusi təyinatlı texnikalar və müasir suvarma avadanlıqlarını gətirib lizinq yolu ilə fermerlərə verilməsi qarşıya məqsəd qoyulub.

Rayonun kənd təsərrüfatı idarəsinin apardığı sorğular nəticəsində bu il "Yaşıl çay" fermer təsərrüfatı tərəfindən 5 hektar sahədə, "Astaraçay" MMC təsərrüfatı tərəfindən 10 hektarda, "Beta" şirkəti tərəfindən 34 hektarda, rayonun Vilvan və digər kəndlərində 5 hektarda, ümumilikdə isə 55 hektar yeni çay plantasiyasının salınması nəzərdə tutulub.

Bununla yanaşı, rayonumuzda qədim əkinçilik sənəti olan çəltikçiliyə də diqqət artırılıb. Keçən ilə nisbətən əkinləri artırmaq məqsədilə bu il rayonun Girdəni, Ürgə, Siyavar, Hirkan, Şıxəkəran, Xolmili, Separadi, Viravul, Şürük və digər kəndlərində torpaq payçıları tərəfindən 526,5 hektardan çox sahədə çəltik əkini keçirilib və bu da keçən illə müqayisədə 217,8 hektar çoxdur. Onu da qeyd etmək istəyirəm ki, əvvəlki illərlə müqayisədə keçən il və bu il rayonda çəltik əkini və səpini texnikanın köməyi ilə aparılıb. Bu gün artıq Lənkəranda çəltikçilik ən rentabelli sahəyə çevrilməkdədir. Əgər keçən il 308,7 hektarda çəltik əkini keçirilmişdisə, bu il həmin rəqəm "Green East" MMC, "Astaraçay" MMC, "Cənub Aqro" MMC kimi hüquqi təşkilatlar tərəfindən əkin 526,5 hektara çatdırılıb.

Rayonumuzda kənd təsərrüfatının aparıcı sahələrindən biri də sitrus meyvəçiliyidir. Ölkə başçısına bu sahədə görülən işlər barədə dəqiq məlumat verilib. Hal-hazırda rayonumuzda statistik məlumata əsaslansaq ayrı-ayrı fermer, sahibkar və fiziki şəxslərin öhdəsində 1228 hektar sitrus bağı mövcuddur. Rayon rəhbərliyinin faydalı işi sayəsində artıq "Gilan Orchards" MMC tərəfindən 100 hektar, İstisu qəsəbəsində "Yaşıl çay" fermer təsərrüfatında 10 hektar, Separadi kəndində "FRUITGARDEN-MMC" tərəfindən 100 hektar sahədə sitrus bağlarının salınması üçün hazırlıq işləri görülür.

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Cəlilabad regional nümayəndəliyinin Lənkəran bölməsi tərəfindən "Aqrolizinq" ASC-nin xətti ilə gətirilmiş və cari ilin 9 ayı ərzində 438 nəfər fermer və sahibkara 992 ton müxtəlif növ mineral gübrələri verilib. Bildirməliyəm ki, dövlətimizin dəstəyi ilə əməkçilərə fasiləsiz yardımlar edilir. Belə ki, 29 kənd ərazi komissiyasından 413 nəfər istehsalçıya 136, 672 manat subsidiyanın verilməsi, 108 nəfər yeni istehsalçının 5 nəfəri hüquqi şəxs olduğu üçün 103 istehsalçıya yeni plastik kartın verilməsi artıq təmin edilib. Məlumat üçün bildirirəm ki, 413 nəfər istehsalçının hər birinə düşən vəsait onların plastik kart hesabına köçürülməsi "Kapital Bank" ASC tərəfindən təmin edilib.

"Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 avqust tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə süni mayalanma yolu ilə ilin 9 ayı ərzində mütəxəssislərə 1816 dozada toxum verilmiş, 1513 baş heyvanda süni mayalanma aparılmış, nəticədə 427 baş sağlam bala alınıb.

Hazırda rayon ərazisində 75 min 764 baş mal-qara vardır ki, bunun da 53 min 495 başı iribuynuzlu, 22 min 269 başı xırdabuynuzludur. Rəqəmlərdən aydın olur ki, heyvandarlıq sahəsi də sürətli inkişafa qədəm qoyub. Əlbəttə, aqrar sahənin inkişafında mütəxəssislərin hazırlanması mühüm məsələdir. Lənkəran şəhər Kənd Təsərrüfatı İdarəsi olaraq məhsul istehsalı ilə məşğul olan fermer və sahibkarlara dəstək olmaq üçün iyun ayında geniş müşavirə keçirilib. Həmin müşavirədə tələbələr "Yaşıl çay" fermer təsərrüfatında təcrübə mübadiləsində iştirak ediblər. Artıq rayonumuzda fəaliyyət göstərən kənd təsərrüfatı yönümlü təşkilatlarla fermerlər arasında sıx əlaqə yaradılıb. Qarşıdakı dövrdə aqrar sahədə işlərin sürətlənməsi, əkin sahələrinin genişləndirilməsi, istifadəsiz qalmış pay torpaqlarının əkin dövriyyəsinə cəlb edilməsi çayçılığın, çəltikçiliyin və sitrus meyvəçiliyinin inkişafına diqqətin artırılması, yeni istehsal müəssisələrinin yaradılması, bunun nəticəsində də yeni iş yerlərinin açılmasına imkan yaranacaq.

Artıq rayonda kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən 2018-ci təsərrüfat ili üçün payızlıq şum, əkin və səpin işlərinə başlanmış, 500 hektar sahədə şum aparılmış, 95 hektara buğda toxumu səpilmiş, 1 hektarda kahı bitkisi, 9 hektarda isə kələm əkini keçirilmişdir. Bu gün ölkə başçısının qarşıya qoyduğu şərəfli vəzifələri Lənkəranın kənd təsərrüfatı işçiləri də dərindən dərk edir və işlərində ciddi dönüş yaratmağa çalışırlar. Cari ilin sentyabr ayının 3-də cənab Prezident İlham Əliyevin sədrliyi ilə Lənkəranda çay, çəltik və sitrus meyvəçiliyinin inkişafı məsələlərinə dair respublika müşavirəsinin keçirilməsi və cənab Prezidentin müşavirədəki proqram xarakterli çıxışı rayonun bütün sahələrində olduğu kimi, aqrar sahədə də əsl canlanma, işgüzar ab-hava yaradıb. Lənkəran şəhər Kənd Təsərrüfatı İdarəsi də rayonda kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermer və sahibkarlara, mövcud kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin əkinə cəlb olunmasına, rayonda məhsul istehsalının artırılmasına, istehsal olunan məhsulların keyfiyyətinin yaxşılaşdırılması və tədarükünün səmərəli təşkil olunması ilə əlaqədar qarşıya qoyulan vəzifələrin layiqincə yerinə yetirilməsinə dəstək olmağa səy göstərir.

Sonda bütün kənd təsərrüfatı işçilərini peşə bayramı münasibətilə təbrik edir, şərəfli işlərində uğurlar arzulayırıq.

**Söhbəti yazdı:**
**Barat KƏRİMOV,**
**"Lənkəran" qəzetinin əməkdaşı**



## LDU-DA RESPUBLİKA ELMİ KONFRANSI

Lənkəran Dövlət Universitetində (LDU) "Müasirləşən Azərbaycan: Yeni yüksəliş mərhələsi" mövzusunda gənc tədqiqatçıların respublika elmi konfransı keçirilib. LDU-nun təşkilati dəstəyi ilə reallaşan tədbirin plenar iclasını universitetin rektoru vəzifəsini icra edən riyaziyyat üzrə elmlər doktoru, professor Natiq İbrahimov açıb. LDU rəsmisi son illərdə ölkədə gənc elmi kadrların yetişdirilməsi istiqamətində respublika Təhsil Nazirliyinin həyata keçirdiyi uğurlu layihələr barədə məlumat verərək, universitetdə elmlə praktikanın üzləşdirilməsi yönümündə təcrübi tədqiqatlara start verildiyini bildirib. LDU-da gənc kadrların elmi potensialının düzgün yönləndirilməsi məqsədi ilə yeni proqramın hazırlandığını deyən N.İbrahimov bu istiqamətdə dünya ali təhsil müəssisələrinin təcrübəsindən də yararlanacaqlarını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Professor N.İbrahimovun çıxışı LDU-nun bu istiqamətdə fəaliyyətini əks etdirən videoçarxla müşayiət edilib.

Daha sonra "Elmi kadr hazırlığının milli strategiyası" mövzusunda LDU-nun tədqiqat işləri və innovasiyalar üzrə prorektor vəzifəsini icra edən professor Yədulla Ağazadə məruzə edib. Müzakirədə gənc tədqiqatçılardan Əfranə Həsənli, Ruslan Mirzəyev, Şəbnəm İbadova çıxış edərək ölkədə gənc alimlərin hazırlanması istiqamətində görülmüş işlərdən və həllini gözləyən məsələlərdən söz açıblar.

Respublika elmi konfransı iştirakçıları adından Prezident İlham Əliyevə ünvanlanan müraciətdə ölkədə gənc elmi kadrların inkişafına göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıq ifadə olunub, bu etimada yeni uğurlu tədqiqat işləri ilə cavab veriləcəyi vurğulanıb.

Sonra konfrans öz işini ayrı-ayrı bölmələrdə davam etdirib. Təbiət elmləri, Humanitar elmlər, Aqrar və mühəndislik, iqtisadiyyat bölmələrində gənc tədqiqatçıların Azərbaycan, rus, ingilis dillərində müxtəlif mövzularda 120-dən artıq məruzəsi dinlənilib.

Elmi konfransın yekununda bölmə sədrlərinin hesabatları dinlənilib, aktiv müzakirə aparılıb. Professor N.İbrahimov konfransda fəal iştiraklarına görə gənc tədqiqatçılara rəhbərlik adından minnətdarlıq edib və gələcək elmi fəaliyyətlərində uğurlar arzulayıb. Gənc tədqiqatçılar arasında daha maraqlı məruzələr təqdim etmiş iştirakçılara sertifikatlar təqdim edilib və həmin işlərin nəşr olunması tövsiyə olunub.

**Ağaddin BABAYEV**



### *Milli Orduya payız çağırışı*

# OĞULLAR ƏSGƏR GEDİR...



Tarix boyu xalqımız qəhrəmanlıq ənənələri ilə ad-san çıxarıb, yadellilərə qarşı mərdliklə döyüşüb. Böyük sərkərdələr yetişdirən Azərbaycan xalqının çox yaxşı bir deyimi var: "Ordum varsa, yurdum var!" Doğrudan da, nizami ordu, mərd və qorxmaz oğullarımız olmasa, Vətəni nə qorumaq, nə də yaşatmaq olar. "Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var" – deyən Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu gün ordumuzu Cənubi Qafqazda ən güclü ordu səviyyəsinə yüksəldib. Azərbaycanın hərbi büdcəsinin Ermənistanın ümumi dövlət büdcəsindən çox olması dediklərimizi bir daha sübut edir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin cəmi 5 ildir yaranmasına baxmayaraq, bu qurum, sözün həqiqi mənasında, öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışır. Xidmətin Lənkəran Rayon Şöbəsinin çağırışçılarla apardığı təbliğat işləri, hərbi vətənpərvərlik ruhunun artırılması ilə bağlı gördüyü tədbirləri təqdirəlayiqdir.

Lənkəranda gənclərin həqiqi hərbi xidmətə yola salınması mərasimləri həmişə böyük təntənə və coşqu ilə həyata keçirilir. Bu baxımdan Milli Orduya payız çağırışı kampaniyası da mütəşəkkil yerinə yetirilir.

Oktyabr ayının ortalarıdır. Qızıl payız günlərindən biridir. Lənkəranda çağırışçıların Milli Ordu sıralarına yola salınması mərasiminə toplaşan valideynlərin, gənclərin və ictimaiyyət nümayəndələrinin üzündə bayram, sevinc əhval-ruhiyyəsi duyulur. Mərasimi giriş sözü ilə açan SHXÇDX Lənkəran Rayon Şöbəsinin rəisi, mayor Tural Məmmədov deyir:

– Əziz çağırışçılar, sizə xidmət zamanı komandirlərin əmr və tapşırıqlarını tam məsuliyyət hissi ilə yerinə yetirmənizi, hərbi bilik və bacarıqlara yaxından yiyələnməyinizi, Azərbaycan Respublikasının qanunlarına və nizamnamələrinə ciddi şəkildə riayət etmənizi tövsiyə edirəm.

Sonra qurumun rəisi Vətənin müdafiəsinə yola düşən gənclərə ən xoş arzularını bildirir, onların qüdrətli dövlətimizə layiqli övladlar kimi xidmət edəcəklərinə əminliyini vurğulayır.

Çağırışçılar adından çıxış edən Gəgiran kənd sakini Cahil Mehman oğlu Əhədzadə deyir:

– Bu Vətən bizə babalarımızdan bir əmanətdir. Biz onu olduğu kimi qoruyub gələcək nəsillərə ötürməliyik. Nə qədər ki, bizlər varıq, Azərbaycanın bir qarış torpağı da düşmən tapdağı altında qalmayacaqdır!..

C.Əhədzadə Milli Ordunun Şəmkir korpusunun Gəncə şəhərində yerləşən N saylı hərbi hissəsində xidmət keçəcək. Bu barədə qurumun elanlar lövhəsində məlumat əldə etdik.

Mərasimdə həmsöhbət olduğumuz digər çağırışçılar da əminliklə bildirirlər ki, hər zaman Ali Baş Komandanın əmri ilə səfərbər olmağa və torpaqlarımızı qaytarmağa hazırdırlar.

Valideynlər adından danışan Xanbulan kənd sakini Çingiz Əliyev ürək sözlərini belə ifadə edir:

– Böyük oğlum Raufu keçən il ordu sıralarına həqiqi hərbi xidmətə yola salmışıq. O, hazırda Azərbaycan Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə qoşunlarında qulluq edir. Bu müddət ərzində onun nümunəvi xidməti ilə əlaqədar komandirlərindən təşəkkür məktubları almışıq. Bu gün ikinci oğlum Vüsalı ailə üzvlərimiz, bütün qohum-qonşularımız ruh yüksəkliyi ilə orduya göndəririk. O da qardaşı kimi Vətənə olan müqəddəs borcunu layiqincə yerinə yetirəcəyinə söz verib.

Sonda Vətənin müdafiəsi üçün yola düşən gənclər müqəddəs Azərbaycan Bayrağının altından keçərək onlar üçün ayrılmış avtobuslara əyləşirlər.

**İ.MƏHƏRRƏMOĞLU**

# LƏNKƏRAN TEATRINDA İKİ TAMAŞANIN PREMYERASI OLUB



Oktyabrın 15-də Lənkəran Dövlət Dram Teatrında görkəmli Azərbaycan yazıçı-dramaturqu Əbdürrəhim bəy Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları" povestinin motivləri əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası keçirilib. İki gəncin nakam məhəbbətindən bəhs edən səhnə əsərinin quruluşçu rejissoru respublikanın Əməkdar artisti Adil Zeynalov, quruluşçu rəssamı Tərlan Sadıqov, musiqi tərtibatçısı Fərahim Fərəcovdur.

Maraqla qarşılanan tamaşada rolları respublikanın Xalq artisti Qabil Quliyev (Dərviş), əməkdar artistlər Sucəddin Mirzəyev (Hacı Kamyab), Zemfira Əhmədova (Fərmanın anası), artistlərdən Səyad Əliyev (Xortdan, Fərman), Şahrud Mehdiyeva (Hacı Kamyabın arvadı), Allahverən Babayev (Məşədi Seyfulla, Hampa, II dost), Niftulla Əsgərov (Hacı Mirzə Əhmədağa), Əlibala Əsgərov (Odabaşı, Xudayar xan), Miraslan Ağayev (Mirzə Mehdi), Hikmət Cəfərov (müəllim), Günel Abbaszadə (Göhərtac), Rauf Zeynalov (I dost, I oğlan), Nizami Qurbanov (II oğlan), Elvin Abdullayev (III oğlan) oynayıblar.

Teatrda premyerası keçirilən digər səhnə əsəri – fransız şairi və yazıçısı Şarl Perronun "Çəkməli pişik" nağılı əsasında hazırlanmış "Çəkməli Perro və Şahzadə Pyer" tamaşası məktəblilər üçün nəzərdə tutulub. Xeyrin Şər üzərində qələbəsi fonunda qurulmuş tamaşanın rejissoru Tərlan Abdullayev, quruluşçu rəssamı Tərlan Sadıqov, musiqi tərtibatçısı Fərahim Fərəcovdur.



Rolları aktyorlardan Allahverən Babayev, Hikmət Cəfərov, Səyad Əliyev, Şəbnəm Hüseynova, Rauf Zeynalov, Aysel Babazadə, Günel Abbaszadə, Ülkər Quliyeva, Nizami Qurbanov ifa ediblər.

**Ağaddin BABAYEV**



# "İNSAN ALVERİ VƏ MƏCBURİ ƏMƏYƏ DAİR MƏSƏLƏLƏRDƏ MƏLUMATLANDIRILMA" MÖVZUSUNDA TƏLİM

"Hüquqi Yardım" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirdiyi "Cənub regionunda insan alveri və məcburi əməyə dair məsələlərdə əhalinin məlumatlandırılması" layihəsi çərçivəsində Lənkəran şəhərində fəaliyyət göstərən QHT təmsilçiləri, rayon ictimaiyyəti və gənclər təşkilatlarının nümayəndələri üçün insan alveri və məcburi əməyə həsr olunan məsələlərlə bağlı bir günlük təlim keçirib.

Təlim zamanı "Hüquqi Yardım" ictimai birliyinin sədri İlqar Qasımov və layihə üzrə təlimçi insan alveri, bu bəlanı doğuran səbəblər və onların mahiyyəti, insan alveri və məcburi əməyi doğuran nəticələr, insan alveri ilə aparılan mübarizə, bu mübarizənin qanuni əsasları, məcburi əmək və onunla əlaqədar aparılan hüquqi tədbirlər və s. barədə məlumat veriblər.

Tədbirdə insan alveri anlayışı, insan alveri qurbanları və potensial qurbanlarla işləmə prinsipləri, onların sosial və hüquqi müdafiəsi, insan alverinin baş verməsinin forma və metodları, insan alverinə qarşı mübarizə tədbirləri, cinayətin profilaktikası, insan alveri qurbanlarının müdafiə edilməsi və onlara köməklik göstərilməsinin hüquqi və təşkilati əsasları barədə ətraflı söz açılıb. İnsan alveri qurbanlarının reabilitasiyası və reinteqrasiyası, onların müdafiəsi ilə bağlı nəzərdə tutulan çoxşaxəli tədbirlər, insan alveri qurbanları üçün sosial reabilitasiya mərkəzləri, vətəndaşların insan alveri qurbanına çevrilməməsi üçün nələri bilmələri barədə danışılıb.

Təlimdə "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunu, "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı" ətraflı təhlil edilib, Lənkəran rayonu ərazisində fəaliyyət göstərən ictimaiyyət üzvləri üçün insan alveri ilə mübarizə barədə dolğun bilgilər verilib. İnteraktiv şəraitdə davam edən təlimin sonunda iştirakçıların çoxsaylı sualları cavablandırılıb.

Təlimdə həmçinin bütün iştirakçılara "Hüquqi Yardım" İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə çap etdirdiyi "İnsan alveri ağır cinayətdir" adlı bukletlər paylanılıb.

**A.ŞAĞLASERLİ**

# YENİ TƏYİNATLAR

Azərbaycan Prezidenti İlham Əliyev bir sıra birinci instansiya məhkəmələri sədrlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Məhkəmə-Hüquq Şurasının təklifləri nəzərə alınaraq **Elxan Xasay oğlu Süleymanov** Lənkəran Ağır Cinayətlər Məhkəməsinin sədri, **Əliəjdər Məlik oğlu Ələkbərov** Lənkəran Rayon Məhkəməsinin sədri təyin edilmişlər.



# “MÜSTƏQİLLİYİMİZ DÖNMƏZ, ƏBƏDİ VƏ SARSILMAZDIR” MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

Oktyabrın 18-də Lənkəran şəhər Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi altıncı ildönümünə həsr olunmuş "Müstəqilliyimiz dönməz, əbədi və sarsılmazdır" mövzusunda tədbir keçirilib.

Tədbirdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra Mərkəzin direktoru Reyhanə Sadıxova Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi altıncı ildönümü münasibəti ilə tədbir iştirakçılarını təbrik edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirmiş fenomen şəxsiyyət kimi tariximizdə əbədiyaşarlıq qazanmışdır. Bu siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Lənkəran şəhər 5 saylı tam orta məktəbin direktor müavini Cəfər Fətullayev və Rvo kənd tam orta məktəbinin dil ədəbiyyat müəllimi Samirə Quliyeva çıxışlarında bir daha Azərbaycanın dövlət müstəqilliyinin bərpasından, ölkəmizin bu günkü inkişafından qürur hissi keçirdiklərini, müstəqil Respublikamızın sabahının daha gözəl olacağından əminliklə söhbət açıblar.

Mərasimdə Lənkəran şəhər Mədəniyyət Mərkəzinin bədii-qiraət dərnəyinin üzvlərinin ifasında bədii kompozisiya böyük maraqla dinlənilib.

Tədbirin sonunda iştirakçılar Ulu Öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini özündə əks etdirən eksponatlarla tanış olublar.

Xatirələrdə yaşayanlar

# MİLLİ KULİNARİYAMIZIN ŞAHI

*Azərbaycanın mətbəx mədəniyyətinin tanınmış simalarından olan Şahhüseyn Kərimov yaşasaydı 70 illik yubileyini qeyd edəcəkdi*

**Həmyerlimiz, Azərbaycan Milli Kulinariya Assosiasiyasının fəxri üzvü, usta aşpaz Şahhüseyn Kərimov milli mətbəx mədəniyyətimizin unudulmaz simalarından idi. Əlli illik fəaliyyəti dövründə o, Azərbaycanın mətbəx mədəniyyətində silinməz iz salmaqla dünya dərəcəli aşpaz tituluna yiyələnmişdi.**

Yəqin ki, 25-30 il öncə dəyərli oxuculardan çoxunun şəhərimizin Böyük bazar ərazisindəki "Dostluq" kafesinə yolu düşüb. Burada müştərilərə təklif olunan Lənkəran mətbəxinin çölməkabab, fisincan, musumma, murqutuş, taskabab, narbic, qaraplov... kimi nadir, ekzotik xörək növlərinin dadını, tamını yaddan çıxarmaqmı olar?! Bu xörəkləri bişirib ərsəyə gətirən isə kafenin baş aşpazı Şahhüseyn Kərimov olub. Bəli, bəli, söhbət görkəmli yazıçı Fərman Kərimzadənin "Çaldıran döyüşü" romanında Şah İsmayıl Xətainin təsvir olunan aşpazının prototipindən gedir.

...Lənkəran sakinləri Şahhüseynin mərhum atası Qulu kişini də yaxşı xatırlayırlar. II Dünya müharibəsində bir ayağını itirən bu ağır təbiətli insan Böyük bazarda aşpaz işləyirdi. Onun bişirdiyi xörəklərin qoxusu az qala bütün şəhərə yayılardı. Balaca Şahhüseyn tez-tez atasının iş yerinə gəlib ona köməklik göstərir, həmçinin mətbəx mədəniyyətinin sirlərini öyrənirdi.

Elə Qulu kişinin məsləhəti ilə Şahhüseyn orta məktəbi bitirdikdən sonra Bakıda kooperativ məktəbinə daxil oldu. Aşpazlıq sənətinin sirlərini əxz edib doğma Lənkəranа qayıdaraq, bir müddət "Sahil" və "Lənkəran" restoranlarında, daha sonra isə "Dostluq" kafesinin baş aşpazı kimi çalışmağa başladı.

Ş.Kərimovun milli kulinariyamızın tanınmış simalarından biri kimi ad çıxarması isə əsasən 1990-cı illərin əvvəllərinə təsadüf edir. Mən o vaxtlar çalışdığım "Lənkəran" qəzetinin səhifələrində aşpaz dostumun hər uğuru barədə oxucuları məlumatlandırmaqdan qürur hissi duyurdum. Axı, Şahhüseyn çoxlarına nəsib olmayan bir missiyanı çiyinlərində daşıyırdı – o, Lənkəran mətbəxini bütün dünyaya tanıdırdı.

1993-cü ildə Şahhüseyn Kərimovun da daxil olduğu Azərbaycan kulinarlarından ibarət komanda ilk dəfə Maltada Beynəlxalq Kulinariya Çempionatında iştirak etdi. Komandamız qızıl, gümüş və bürünc medallarla Vətənə qayıtdı. Bu mükafatların qazanılmasında isə söz yox ki, Şahhüseynin də böyük zəhmət payı vardı.



Elə həmin il Azərbaycan Milli Kulinariya Mərkəzinin təqdimatı ilə Şahhüseyn Kərimova "Usta" dərəcəsi verildi. O, 4-cü dərəcədən, 5-ci və 6-cı dərəcələr olmadan, birbaşa "usta" dərəcəsi alan ilk və yeganə Azərbaycan aşpazıdır. Ömrünün 15 ildən çoxunu Bakı şəhərində "Turac" restoranında, "Gənclik" kafesində, "Qurd qapısı" restoranında, "Ceyran" kafesində usta dərəcəli aşpaz işləyən Şahhüseyn 2001-ci ildən "Köhnə şəhər" restoranında baş aşpaz kimi əmək fəaliyyətini davam etdirib.

Şahhüseyn işini təkcə xörək bişirməklə bitmiş hesab etmirdi. Saysız-hesabsız unikal xörək növünün, o cümlədən məşhur "Şah plov"un müəllifi olan bu dəyərli insan bənzərsiz Talış mətbəxinin tanınması üçün də böyük əmək sərf edirdi. "Azərbaycanın ticarət əlaçısı" adına layiq görülən Ş.Kərimov milli mətbəximizi dünyanın 100-dən çox ölkəsində keçirilən festivallarda təbliğ edib, çoxlu Qran-pri, diplom və fəxri fərman qazanıb. Əlli illik fəaliyyəti dövründə o, 200-dən çox şagird yetişdirib və onun yetirmələri hazırda dünyanın müxtəlif şəhərlərində öz müəlliminin yolunu layiqincə davam etdirirlər.

Şahhüseyn Kərimov 2011-ci ilin yayında boğazından əməliyyat olunmuşdu. Həkimlərin səylərinə baxmayaraq, sağalmaz xəstəlik bir müddət sonra - dekabrın 4-də onu həmişəlik əzizlərindən, dostlarından, tanışlarından ayırdı. Lakin bu, yalnız cismani ayrılıq oldu. Şahhüseyn mənən bu gün də bizimlədir – əzizləri ilə, dost-tanışları ilə, canından çox sevdiyi doğma Lənkəranla...

Yerin behiştlik, Şah qardaş! Rahat yat və əmin ol ki, sənin yetirmələrin yolunu layiqincə davam etdirirlər...

**Ağaddin BABAYEV,**
**"Lənkəran"ın müxbiri.**

# OXUCULARIN NƏZƏRİNƏ!

"Lənkəran" qəzeti yaşından asılı olmayaraq ad günləri, yubiley tədbirləri, toy şənlikləri, nişan mərasimlərinin keçirilməsi barədə, eyni zamanda, ali məktəblərə, kolleclərə qəbul olunanlarla əlaqədar və s. məzmunlu təbrik mətnlərinin dərcinə başlayıb.

**Əlavə məlumat almaq istəyənlər 25-5-35-05, 25-5-35-49 nömrəli telefonlara zəng edə bilərlər.**

# ƏZİZ OXUCULAR!

*2018-ci ilin I yarımili üçün “Lənkəran” qəzetinə abunə kampaniyası başlanmışdır.*

**ALTI AYLIQ ABUNƏ QİYMƏTİ 10 MANATDIR**

**Əlavə məlumat almaq üçün Mətbuatyayımının Lənkəran rayon şöbəsinə (02525) 5-24-99, (02525) 5-27-61 və redaksiyamıza (02525) 5-35-05, (02525) 5-35-49 nömrəli telefonlara zəng edə bilərsiniz.**

**“Lənkəran” qəzeti**

# İTMİŞDİR

Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin 10 saylı Lənkəran Ərazi İdarəsi tərəfindən 20.06.2013-cü il tarixdə Lənkəran rayonunun Şiləvar kəndindəki fərdi yaşayış evinin sakini **Quliyev Elvin Elçin oğlunun** adına verilmiş ev sənədləri (kupça), o cümlədən torpaq mülkiyyətinə dair çıxarış və plan ölçü aktı (Reyestr nömrəsi 802013000677-10301, Qeydiyyat nömrəsi 2213003914) itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 18 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Lənkəran rayonunun Liman şəhər sakini **Quliyev Soltanağa Əliağa oğlunun** adına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-1364, kod: 80202004) itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 7 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Lənkəran rayonunun Xarxatan kənd sakini **Məmmədov Vüqar Aşur oğlunun** adına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-0075, kod: 80224038) itdiyi üçün etibarsız sayılır.

***

2016-cı ildə Lənkəran Dövlət Universiteti tərəfindən **Səfərov Rahib Rəfail oğlunun** adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


Baş redaktor Əlimərdan ƏLİYEV

TƏSİSÇİLƏR: Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və “Lənkəran” qəzetinin yaradıcı kollektivi

HESAB NÖMRƏMİZ: AZ30AIIB33010019443860238138 VÖEN 2600244411 Kapital Bankın Lənkəran şöbəsi lisenziya № V 343 İndeks: 66920

ÜNVANIMIZ: Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə) Telefonlar: 255-35-05, 255-35-49 E-mail: lenkeranqezeti@mail.ru

Buraxılışa məsul Ağaddin Babayev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda “Azərmedia” MMC-nin mətbəəsində çap olunmuşdur. Tiraj: 2200